# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 5** **Bakı şəhəri, 11 yanvar 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu haqqında Əsasnamə", "Ekoloji auditor fəaliyyətinin aparılması Qaydaları" və "Dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2001-ci il 22 fevral tarixli 41 nömrəli, "Ekspertiza işlərinə cəlb edilən ştatdankənar ekspertlərin əməyinin ödənilməsi haqqında" 1999-cu il 16 iyun tarixli 99 nömrəli və "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 21 may tarixli 184 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 yanvar tarixli 476 nömrəli Fərmanının 9.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 22 fevral tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 119; 2002, № 7, maddə 451, № 11, maddə 675; 2003, № 4, maddə 215; 2004, № 9, maddə 745; 2005, № 1, maddə 49, № 7, maddə 667; 2008, № 9, maddə 856; 2011, № 9, maddə 865; 2016, № 9, maddə 1598; 2017, № 3, maddə 513; 2018, № 1, maddə 119, № 9, maddə 1938; 2020, № 10, maddə 1271) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi Qaydası" ləğv edilsin.

**2.** "Ekspertiza işlərinə cəlb edilən ştatdankənar ekspertlərin əməyinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 16 iyun tarixli 99 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 630) 1-ci hissəsinə "Dövlət büdcəsindən maliyyələşdirilən icra hakimiyyəti orqanlarında" sözlərindən sonra ", Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərdə" sözləri, "orqanın" sözündən sonra ", publik hüquqi şəxsin" sözləri və "orqan" sözündən sonra ", publik hüquqi şəxs" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 655; 2022, № 5, maddə 552) ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nın 2.21-ci bəndində "2001-ci il 22 fevral tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi Qaydası" sözləri "2023-cü il 10 yanvar tarixli 3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi Qaydası" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti .- 2023.- 13 yanvar.- S.2.